# NİYALIN YAMACINDA

## (Sənədli hekayə)



*Rəsul RƏXŞANLI*

***Salam, Əlirza müəllim. Martın 31-i soyqırım günüdür. Bu münasibətlə sənədli hekayə qələmə almışam. Erməni silahlıları Şamaxını viran qoyandan sonra 2 dəstəyə ayrılıb. Biri Qubaya üz tutub - bu haqda çox yazılıb. İkinci dəstə isə Basqal-Lahıc tərəfə yollanıb. Xeyli material toplayıb sənədli hekayəni yazmışam. Əgər ürəyinizə yatarsa dərc etməyinizi rica edirəm. Dərc etsəniz qısaltmamağınız mənə xoş olardı, çünki materialı min bir əziyyətlə toplaya bilmişəm.***

***Hörmətlə Rəsul RƏXŞANLI***

Bakıda müsəlman əhaliyə qarşı ermənilərin qırğın törətməsi hamını dəhşətə salırdı. Şəhərin baş-bilənlərinə tezliklə hər şey aydın oldu. Belə amansız qırğını törədənlər bolşevik libasına geyindirilmiş daşnaklardan ibarət silahlılardı. Onların böyüyü Stepan Şaumyandı. Şaumyanı Bakıya başçı göndərənsə bolşeviklərin rəhbəri Lenindi. Lenin Bakıda şura hökumətinin qurulmasını ona həvalə eləmişdi. O da fürsətdən istifadə edərək daşnakları qırmızı əsgər paltarına geyindirib əllərinə silah vermiş, müsəlmanları qırmağı, varidatlarını süpürləməyi tapşırmışdı. Şəhərdə, necə deyərlər, qan su yerinə axırdı. Sahiblərini öldürdükləri evləri, şirkətləri, dükanları ermənilər qarət edirdilər. Onların qabağına qorxubilməz Bakı qoçuları çıxırdı. Sadə adamlar imkan tapan kimi, necə deyərlər, başını götürüb şəhərdən qaçırdı. Bakıda yaşayan lahıclı tacirlər, ustalar və fəhlələr də ata-baba ocağına pənah gətirirdilər. Baş verənlərə maraq Lahıc camaatı arasında böyük idi. Hər şeyi gözü ilə görənlərdən, şahidi olanlardan eşitmək istəyirdilər. Fəhlə Ağalı Nəzəralı oğlunun başına bazarda xeyli kişi toplaşmışdı. O dəhşətli söhbət edirdi:

– Mən bir dəstə yerlimizlə Bibiheybətdə yük körpüsündə işləyirdim. Gəmiyə pambıq yükləyirdik. Xozeyinimiz Sərxan bəy tacir idi, qoçu idi. Urusiyyətə pambıq göndərirdi. Ermənilər qəfildən bizə atmağa başlayanda Sərxan bəy özünü itirmədi. Körpüdə səngər düzəltdirdi, oradakı kişilərə tüfəng verdi, patron payladı. Aramızda bərk atışma düşdü. Bizimkilər cəsarətlə vuruşurdu. Hər iki tərəfdən ölənlər, yaralananlar oldu. Yanımdakı can verəndə "bir sürü külfətim acından qırılacaq, Allah ermənilərə lənət eləsin" dedi. Qısası, ermənilər qabağımızdan qaçdılar. Ağalı nəfəsini dərəndə kiminsə hövsələsi çatmadı:

–Sonra nə oldu, hə, danışsana. – Hava qaraldı. Daşnaklar qayıda bilərdi, böyük dəstə ilə. Cığırlarla qaçıb Bibiheybət dağını keçdik. Altı nəfər idik. Bir təhər özümüzü Heybət stansiyasına çatdırdıq. Sanqaçala qədər piyada getdik. Bizdə can qalmamışdı. Stansiya rəisindən nə vaxt qatar olacağını xəbər aldıq. Gürcü rəis vəziyyətə görə çox ratahsız görünsə də bizi sakitləşdirməyə çalışdı:

– Səbriniz olsun, gözləyin, qatar gələsidi. Sizi də mindirib yola salaram. Mən də ailəmə görə qorxuram. Var-yoxumuzu soyub aparmaları cəhənnəmə, arvad-uşağa toxunarlar, öldürərlər. Bunlardan hər cür layiqsizlik gözləməyə dəyər. Bizdə şair İlya Çavçavadze vardı, böyük adam olub. O deyirdi ki, ermənilər Qafqaza gəldilər, özləri ilə bəla gətirdilər. Mən soruşdum:

– Çoxmu gözləməliyik?

Rəis: – Eh, birini bilirsiz, o birini yox. Bir yandan da şahsevərlər basqın ediblər. Ələt stansiyası yaxınlığında qabaqlarına çıxanları soyublar. Bilmirsən özünü kimlərdən qoruyasan. Hövsələniz olsun, hökmən gələsidi. Ağalı öskürərək söhbətinə davam elədi:

–Çarəmiz yoxudu, gözlədik. Qatar da gəldi, şahsevərlər də. İnsafən, şahsevərlər nə bizə, nə də rəisin ailəsinə toxunmadılar. Onlar qatar maşinistini vadar edib yaxınlıqdakı erməni dəstəsi olan yerə sürdürdülər. Quldurları qırmağı bacardılar. Silah-sursatlarını götürüb qayıtdılar. Biz vaqona minib Ələtə getdik. Oradan yolumuza piyada davam elədik. Zor-bəla ilə gəlib Ağcaqabula yetişdik. Aclıq bir yandan bizi üzürdü, erməni silahlılarının qəfil hücumunun qorxusu da o biri yandan. Bir baqqal bizi dükanında gizlətdi. Allah ata-anasına rəhmət eləsin. Söhbətə qulaq asanların heç səbri yox idi. Bəziləri Ağalının nəfəsini dərməsini, udqunmasını belə istəmirdilər. O söhbətini bir anlığa dayandıranda kimisi nəsə deyirdi, kimisi də sir-sifətini turşudurdu. Beləliklə də onu söhbətini başa çatdırmğa tələsdirirdilər. O hamını anlayırdı, söhbətinə ara verməməyə çalışırdı.

– Sonra Qarasuya gedən torpaqdaşıyan yük vaqonuna mindik. Düşürtmək istədilər, qırmancla döydülər. Dözdük, başqa əlacımız yoxudu. Yalvarıb - yaxardıq. Gəlib çatdıq Kürdəmirə. Gəncəli İsmayıl bəyin dəstəsi də buraya gəlmişdi, Şamaxıya gedirdi, köməyə. Acyalavac olduğumuzu biləndə bizə adambaşına bir çörək verdilər. Kağız da verdilər ki, yolda bizi saxlamaq istəyən olmasın. Onlara dua elədik. Piyada getdik Ağsuya, oradan da zülmlə qalxdıq Basqala. Basqallılara başımıza gələnləri söylədik. Bizə pendir-çörək verdilər, çay içdik. Özümüzə gəldik. Ağalının sifətində xoşluq yarandı, hətta, gülümsəmək də istədi, bacarmasa da.

– Onlara "sağ olun" deyib yolumuza davam elədik. Gecəyarısı Niyal dağını aşdıq. Yolda Lahıca nə qədər qaçqın axışdığının şahidi olduq. Evimizə çatanda ayaqlarımızın altı cadar-cadar idi. Bədənimizdə can qalmamışdı. Di gəl ki, daşnakların əlinə keçmədiyimizə görə Allahımıza şükür eləyirdik.

O söhbətini başa vurub rahatca nəfəs aldı. Həmyerliləri ona baxır, onun və yol yoldaşlarının halına acıyırdılar.

Min doqquz yüz on səkkizinci ilin aprel ayı idi. Hələ yerdə qar görünürdü. Buğdanın yetişməsinə, ağacların bar verməsinə çox qalmışdı. Lahıcın azuqə ehtiyatı tükənmişdi. Aclıq, səfalət baş alıb gedirdi. Yollar erməni quldurları ilə dolu idi. Taxıl, ərzaq gətirilmirdi. Xəbər çatdı ki, daşnaklar Şamaxını və kəndlərini talan edib yandırıblar. Şamaxıda yaşayan lahıclı-lardan canını bir təhər qurtara bilib, qaçıb gələnlər nələr danışmırdılar? Komandir Stepan Lalayan oğlanqız uşaqlarını arxa-arxaya bağlatdırıb güllələtdirirmiş, ikisini bir güllə ilə. Körpələri analarından alıb yerə atır, təpiyin altında əzişdirirmişlər. Şamaxının gözə dəyən əhalisini qırıblar. Adamların qaçıb gizləndiyi Allah evinə – məscidə od vurub onları diri-diri yandırıblar. Allah bunlara lənət eləsin. Amin! Sonra bölünüblər İki dəstəyə. Biri Lahıca gəlir. Ermənilər burada varlıların olduğunu, müsəlmanların çox yaşadığını bilirlərmiş. Söhbətə qulaq asanlar eşitdikləri dəhşətləri camaat arasında yaydılar. Lahıcın bir neçə canısulu ahılları yerli cavanlardan könüllü dəstələr yaratdılar. Silahlanıb İsmayıllı, Maçaxı və Şamaxıya yola düşdülər. Zəvəro məhəlləli tacir Məşədi Cəfərqulunun qulağına nəsə çatanda Ağalını evinə dəvət elədi. O, ikimərtəbəli üstü dəmirli evin üst mərtəbəsindəki balaca otağa girəndə orada iki nəfər oturmuşdu. Onlar Lahıcın nüfuzlu sakinləri zəvərolu sahibkar Hacı Ələsgər, bir də Kərbəlayi Süleymanbəy Səfərəlibəyov idi. Salamlaşarkən Hacı diqqətlə, Kərbəlayı isə sol əlinin şəhadət barmağı ilə bığlarını tumarlayaraq gözaltı ona baxdı. Onun diqqətinisə süfrədəki şirniyyat, mürəbbələr daha çox cəlb elədi. O, süfrə arxasında bardaş qurub əyləşəndə ona da çay gətirildi. Ayaq üstə durmuş ev sahibi ona çay içməyi, şirniyyatın dadına baxmağı təklif elədi. Yerində əyləşib Ağalıya üz tutdu:

–Səni dəvət eləməkdə məqsəd ermənilərin törətdiklərindən nələr gördüyünü, eşitdiyini bizə ətraflı danışmağını istəməyimizdi. Buyur, aramla, bircə-bircə hamısını söylə, səni dinləyirik. Ağalı diqqətini cəmləyib danışsa da gözü süfrədə qalmışdı. Belə adamların yanında süfrəyə əl uzatmağa hələm-hələm cəsarət eləmədi. Onu diqqətdə saxlayan ev sahibi anladı və bir daha ona yeyibiçməyi təklif elədi. Cəsarətlənən Ağalı süfrəyə əl uzatdı. O danışsa da fikri əsasən yediklərində, başqalarınınkı isə eşitdiklərində idi. Söhbətini bitirdikdə onu sorğu-suala tutdular. O gedəndən sonra üçlük eşitdiklərini müzakirə edib bir də toplaşmaq fikrini irəli sürdülər. Şəhərcikdə qalmış sayılıb-seçilən ağsaqqallar, savadlılar, tanınmış ustalar Məşədi Cəfərqulunun evinin ikinci mərtəbəsindəki böyük otağa toplaşdılar. Yeddi məhəllənin hamısından və Lahıcdan kiçicik çayla ayrılan Ərəgirt kəndindən nümayəndələr vardı. Ərəgirt əslində elə Lahıcın davamı, onun bir məhəlləsidi. Gözlənilən xəta-bəladan neccə xilas olmaq haqda müzakirə açdılar. Ev sahibi sözünə belə başladı:

– Ölkədə hökumət yoxdu, - dedi,- özbaşınalıqdı. Kimin nəyə gücü çatırsa, kefi nə istəyirsə onu da eləyir. Camaatımızın kömək umacağı yeri yoxdu. Özümüzə arxalanmalıyıq. Allaha şükür olsun ki, silah düzəltməkdə ustalarımız baçarıqlıdı. Lazımınca silah düzəltməliyik. Ən bacarıqlı ustalarımız əllərindəki işi qırağa qoyub təcili silah qayırmağa başlamalıdı. İmkanlılar var-yoxunu ortaya qoymalıdı. Cavanlarımızısa səfərbər eləyib savaşa hazırlamalıyıq. Lahıc mahalının otuz iki para kəndini də unutmamalıyıq. Onların gözü bizdədi. Lahıc ermənilər qarşısında sınarsa, o kəndlərin camaatı ev-eşiklərindən didərgin düşər. Lahıcı ermənilərə verməyə haqqımız çatmır. Məşədi Cəfərqulunun söylədikləri müzakirəyə toplaşanların ürəyincə oldu. Almaniya universitetində texniki təhsil almış müəllim Rəsul Rəhimli qətiyyətlə: – Xəbərimiz var, Bakıda qarışıqlıqdı. Bizimkilər müstəqil Azərbaycan dövləti yaratmaq istəyirlər. Bolşeviklərsə Rusayada etdikləri kimi bizdə də şura hökuməti qurmağa çalışırlar. Onlara çox şeyimiz gərəkdi, amma hər şeydən öncə neftimiz. Məqsədə çatmaq xatirinə daşnaklardan da istifadə edirlər. Biz hökmən top düzəltməliyik, – qətiyyətlə məsləhət bildi, – daşnaklardan ibarət ordunu qırmızılar əməlli-başlı silahlandırıblar. Ermənilər üstümüzə həmin silahlarla gəlirlər. Bu işdə kömək eləməyi boynuma götürürəm. Ən bacarıqlı ustaları top işinə cəlb edək. Bu işi sonraya qoymayaq, elə bu gündən başlayaq. Top hazırlanması təklifini hamı bəyəndi. Şəhərciyin varlı-hallı və nüfuzlu ağsaqqallarından olan Hacı Ələsgər təklifini sual halında verdi:

–Maraqlıdı, topumuza güclü bomba hazırlamaq mümkündümü? Hacı Ələsgərin sualı toplantı iştirakçılarının diqqətini ciddi cəlb elədiyindən otaqdakıların gözləri ona dikildi. O fikrini tamamladı:

– Neçəyə başa gələcəyindən rahatsız olmayın, məbləğ ödəniləcək. Otağa sükut çökdü. Adamlar bir-birinə baxdılar. Sualın müsbət cavabı hamı üçün dəyərli idi. Onlar təmkinli görünsələr də əslində intizarda idi. Hər biri səbirsizliklə cavab gözləyirdi. Nəhayət ki, düşüncəli görünən müəllim Həsən Rəhimli:

– Yəqin ki, mümkün olar, – bildirərək inamlı səsi ilə sükutu aradan götürdü, – mən bu haqda düşünərəm. Kərbəlayi Süleymanbəy Səfərəlibəyov bığını sol əlinin şəhadət barmağı ilə sığallayaraq:

–Ustalarımız həm də tüfəng, qılınc düzəltməlidilər,– təklif elədi, – bilmək olmaz davamız necə keçəcək. Biz hər cür savaşa hazırlıqlı durmalıyıq. Məşədi Cəfərqulunun yezinəsi tacir Məşədi Fərzi söz aldı:

–Mənim də məsləhətim var, bəlkə işimizə yarıdı. Lahıcın ətrafında səngər qazımaq, orada gecə-gündüz növbə çəkmək məncə işimizə kömək olardı. Kərbəlayi Süleyman bəy:

– Əlbəttə, Məşədi , səngər də qazılacaq, pusqu da qurulacaq. Ehtiyatsızlıq bizə baha başa gələ bilər. Bunları da edəcəyik, hökmən. Bu haqda danışacaqdım, sən məni qabaqladın. Başqaları da sözünü dedi, rəyini bildirdi. Toplantı xeyli çəkdi. Toplananların hər biri ayrı-ayrılıqda və hamısı birlikdə erməniləri Lahıca buraxmamaqda qətiyyətli idi. Nə edəcəklərini öz aralarında razılaşdırdılar. Hər kəsin üzərinə düşən vəzifəsi aydınlaşdı. Toplantı başa çatmaq üzrə idi. Gözlərdə ümid işıltısı peyda olmuş, alınlardakı qırışlar azca da olsa açılmışdı. Muradun məhəlləsinin sakini, imkanlı və işgüzar ağsaqqallardan biri sayılan mülkədar Məşədi İbadulla indiyədək sussa da deyilənləri diqqətlə dinləyirdi. O, ayağa qalxdı:

– Bizə kömək edə biləcək adamları tapmışıq. Yaxınlarda buğda, şəkər gətiriləcək. Ustaların ailələrinin də payı çatdırılacaq. Əlləri işdən soyumasın. Bu xəbər lap yerinə düşdü. Toplantı iştirakçılarının qırışları bir az da açıldı və onlar ümidlə dağılışdı. Məşədi İbadulla evinə yaxınlaşıb darvaza qapısını açmağa əlini uzadanda qapı içəridən açıldı. Böyük oğlu Məşədi Ələkbər həyətdən çıxmaq istərkən atası ilə üzləşdi. O ayaq saxlayıb qapını tutdu və atasını içəri buraxdı. Atası:

– Ermənilərin qarşısını almağa tədbir hazırlanır. Kimsə kənarda qalmamalıdı. Sən də maliyyə yadımı göstərməlisən. – Baş üstə, Məşədi, - cavabıyla Məşədi Ələkbər atasını arxayınlaşdırdı.

*(Davamı var)*